

## *Uşağınız ərköyün xarakterlidir?*

*O sizə qulaq asmır və yalnız lazım bildiyini edir. Bəlkə də, o nəsildə kiməsə oxşayıb. Amma olur ki, valideynlər onu çox nazlayanda uşağın xarakteri düz göz önündəcə korlanır. Övladınızın ərköyün olub-olmadığını müəyyən etmək istəyisizsə irəli!*

***"Bəli"cavabı üçün 2 bal əlavə edin, "xeyr" cavabı üçün isə ballar əlavə edilmir.***

*1. Tez-tez siz uşaq üçün yeməyə xüsusi nəsə hazırlamaq məcbur olursunuzmu?*

*2. Yaxşı qiymətlər üçün hədiyyələr edirsinizmi?*

*3. Siz övladınıza zərərli məhsullar (çipslər, kola) məhz o çox sevdiyi üçün icazə verirsiz ?*

*4. Sizin uşağınız ürəyi istəyən vaxt yatır?*

*5. Münaqişə yarananda, siz həmişə hesab edirsiz ki, o, haqlıdır)?*

*6. Uşağınız çox böyük pula aldığınız gödəkcəni məhz onun xoşuna gəlmədiyi üçün geyinmir?*

*7. Siz həmişə övladızın səpələnmiş oyuncalarını və əşyalarını yığışdırırsız?*

*8. Uşağınız sizi ona az pul verməkdə qınayır?*

*9. Siz tez-tez müəllimləri uşağınıza haqsız münasibətdə olmaqda ttiham edirsiniz?*

*10. Əgər uşaq yorğun olduğu üçün sizdən məktəbə göndərməməyi xahiş edirsə razılaşırsızmı?*
*Alınmış balları cəmləyin.*

***0-6:*** *Tərbiyənizdəki taktika qüsursuzdur: uşağınız tamamilə ərköyün deyil. Ancaq təhlükə var ki, ciddilikdə həddi aşasız. Nə də olsa, uşaqları vaxtaşırı nazlamaq lazımdır.*

***8-12:*** *Uşağını nazlama xoşunuza gəlir. Uşağınız sevgi və mehribanlıqla tərbiyə olunur. Nazlayın  amma unutmayın ki, hər şeyin ölçüsü olmalıdır. Başqa cür uşaq sizin kontrolunuzdan çıxacaq.*

***14-20:*** *Siz ərköyünlüyün sərhədlərini keçmisiz və uşaq sizin kontrolunuzdan çıxıb. O sizi istədiyi ki,idarə edir və tezliklə səmadan ulduzları tələb edəcək. Dayanın, hələ gec deyil. Yox deməyi öyrənin Vəziyyət bunu tələb edir. Hələ hər şey itirilməyib.*